

Ələsgər
ƏLİOĞLU

***

*(Gözəl insan, gözəl yazıçı-publisist Novruz Nəcəfoğluya)*

Heykəllər cürbəcürdür-
Bəzisi tunc, bəzisi bürünc, bəzisi qızıl...
Heykəllər dayanır
Unutqanlığa qarşı döyüşə hazır...
Azadlıq heykəli də var,
Qələbə heykəli də...
Bəzən yalana da heykəl qoyulur,
Bəzən də həqiqətə .
Heykəllərin hər biri
Ünvan olur dikəlib qalxdığı məmləkətə...
Bir heykəl də vardır bu yer üzündə-
Bütün bəşəriyyətə gərəkdir, gərək.
Bu xeyirxahlıq heykəlidir,
Postamenti ürəkdir,ürək...

## AĞLA, UYĞUR BALASI

*(İnternetə baxarkən milli münaqişə zəminində Doqquz-on yaşında bir uyğur oğlanın döyüldüyünü gördüm...)*

Ağla,ağla,ağla ,uyğur balası,
Qorxma ki,gözünün gedər qarası.
Ağla,ağlamağın ara verməsin,
Demə ki,dünyanın qulağı kardır.
Ağla,ağlamaqdan köksün göyərsin,
Demə ki,dünyanın gözləri kordur...
Nə kardır,
Nə də ki,kordur bu dünya,
Bir gün görərsən ki,görərsən ki,sən,
Attək şahə qalxıb durdu bu dünya!..
Sən indi top atıb,top tutmalıydın,
Şarını havada oynatmalıydın...
Amma səni toptək atıb-tuturlar,
Şar kimi havada hey oynadırlar...
Ağla,ağla,ağla,uyğur balası,
Qeyrətin kök atsın ”yağışlarınla”.
Ağal,ağla,ağla,uyğur balası,
Dünyanı diz çökdür baxışlarınla.
Ağla,ağla,ağla,uyğur balası,
Suvar qeyrətini göz yaşlarınla.
Ağla,ağla,ağla,uyğur balası,
Bu dünya üzünə bir vaxt baxacaq.
Ovcuna ələnən göz yaşlarından,
Qılınc cücərəcək,
Nizə qalxacaq!..
Ağla,ağla,ağla,uyğur balası!..

***

*(Döyüşçü Yaşar Babayev şəhid olandan iki gün sonra onun Narin adlı qızı dünyaya gəlmişdir.Övladının adını Yaşar özü qoymuşdu...)*

Narin!..
Narin!..
Sən iki gün gecikdin atanla görüşə,
Atan iki gün tez çatdı
Şəhidlik zirvəsinə;
Yağılarla döyüşə-döyüşə...
Sönməkdə olan bir ocağı,
Yandırmağa alovun, odun oldu.
Üzünü görmədiyin atanın
Sənə ilk-son hədiyyəsi adın oldu.
Dilinə yatmasa da
”Ata” kəlməsi, ”ata” sözü,
Narahat olma sən.
Bir əlindən anan tutar,
Bir əlindən də Vətən...
. Torpağın üstə rahat gəzəsən deyə,
Atan gedən yolu,
Neçə-neçə ərən keçib gedəcək...
Narin!..
Narin!..
Səni qucmaq istəyən ata əlləri,
Torpağı qucdu...
Dünyaya gəldiyin gün bildinmi ki,
Şəhid övladı statusu,
başında tacdı...